*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 dekabr 2018-ci il № 94 (2310) Qiyməti 25 qəpik

## Prezident İlham Əliyev ABŞ-ın Müdafiə Nazirliyinin nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının Müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd edib. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu deyən dövlətimizin başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirib, bu baxımdan ABŞ hökumətinin və şəxsən ABŞ Prezidentinin Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirib. Prezident İlham Əliyev Respublika Günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd edib.

Dövlətimizin başçısı NATO çərçivəsində də əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO mənzil qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev qeyd edib ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada Qətiyyətli Dəstək Missiyasında hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin, həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq və yenidənqurma işlərinə öz töhfəsini, xüsusilə "ASAN xidmət" təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını deyən ABŞ Müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuper qeyd edib ki, Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. Xanım Laura Kuper Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə, təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirib.

## Rusiyanın Xarici İşlər naziri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini Milanda müzakirə edəcək

*Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ATƏT Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) Milanda keçiriləcək iclasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə edəcək. Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) növbəti brifinqində XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.*

AZƏRTAC xəbər verir ki, M.Zaxarovanın sözlərinə görə, RF XİN-in başçısı ATƏT XİNŞ-in dekabrın 6-7-də Milanda nəzərdə tutulan 25-ci iclasında iştirak edəcək. O deyib: "Münaqişələrin, o cümlədən Ukraynanın şərqindəki, Dnestryanı bölgədəki, Dağlıq Qarabağdakı münaqişələrin nizamlanmasına kömək göstərilməsində ATƏT-in səylərini, bu təşkilatın Balkanlarda fəaliyyətini və Cənubi Qafqazda sabitlik üzrə Cenevrə diskussiyalarında həmsədrliyini dəstəkləmək planlaşdırılır".

M.Zaxarova vurğulayıb ki, RF XİN-in başçısı ikitərəfli görüşlər də keçirəcək. Bu görüşlərdə Dağlıq Qarabağ problemi ətrafında müzakirələr aparılacaq. O deyib: "Dağlıq Qarabağ problemi daha konkret, tətbiqi məcrada müzakirə ediləcək. Əlbəttə, orada da bu istiqamətdə hər hansı konkret addımlar və tekliflər nəzərdə tutula bilər".

# Azərbaycan ilə ABŞ arasında hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə edilib

*Dekabrın 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ Müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqları salamlayan Müdafiə naziri ölkələrimiz arasında hərbi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, o cümlədən hərbçilərimizin NATO proqramları çərçivəsində fəaliyyəti, sülhməramlılarımızın Alyansın Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı haqqında ətraflı danışıb. Nazir bildirib ki, hər iki ölkə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. General-polkovnik Zakir Həsənov qeyd edib ki, ABŞ-ın qabaqcıl hərbi təhsil müəssisələrində təhsil alan zabitlərimizin sayının artırılması qərara alınıb.

Regiondakı hərbi-siyasi vəziyyət barədə də qonağa məlumat verən Müdafiə naziri Ermənistanın Cənubi Qafqazda sabitliyə təhlükə yaratdığını, beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadan Azərbaycan torpaqlarını işğal altında saxladığını xüsusi vurğulayıb.

L.Kuper də öz növbəsində ABŞ hökumətinin Azərbaycanla təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsində maraqlı olduğunu vurğulayıb. Azərbaycanın Əfqanıstandakı əməliyyatlara verdiyi töhfəni, o cümlədən sülhməramlılarımızın peşəkarlığını yüksək dəyərləndirən L.Kuper ABŞ-ın Müdafiə naziri Ceyms Mettisdən sitat gətirərək bildirib ki, "Əfqanıstanda bu gün əldə edilən uğurlar Azərbaycanın güclü dəstəyi olmadan mümkün olmazdı".

Qonaq ölkəmizin terrorizmlə mübarizədə iştirakını və sülhməramlılarımızın Əfqanıstandakı nümunəvi xidmətini də xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlıq, hərbi təhsil və tibb hazırlığı məsələləri də müzakirə olunub.

*Ön xətdən reportaj*

# Mənəvi ucalıqdasan, Azərbaycan əsgəri!

*Hər dəfə dağlar qoynunda döyüş növbətçiliyi aparan Azərbaycan əsgəriylə görüşəndə ürəyimi qəribə hisslər bürüyür... Azərbaycan əsgərlərinin əhatəsində dərin düşüncələrdən keçirəm, o düşüncə sellərinin təlatümündə ruhum təmizlənir, təzələnir. Qürurlu bir xoşbəxtlik anlarıdır. O müqəddəs məqamın, o möcüzəli könül xoşluğu yaşadığım anların tanrısal cazibəsində səninlə qürur duyuram, Azərbaycan əsgəri!*



Payız küləyi əsir... Dağlardan əsən yellərlə oğullarımızın Vətən sevgisinə tapınırıq. Başı qarlı dağların ətəyindən qıvrıla-qıvrıla axan çay da, dolanbac yollar da, dağların arxasına çəkilən Günəş də, göy üzündəki qara buludlar da sənin bu sevginə həsəd aparır. Dağların sükutunda ilahi kəlam aydınlığıyla eşidilir, sanki zirvələr arasında külək dil açıb danışır. Külək demək istəyir ki, Azərbaycan əsgərinin göz bəbəyi kimi qoruduğu bir məkandayıq. Bu məkanda ürəyi intizarda qalanların həsrətinə, nisgilinə son qoyulacaq...

Dolama yol sanki dağların və buludların arasından keçir... Səngərə çatırıq. Mayor Firudin Mikayılov deyir ki, düşmənlə təmas xəttində yerləşən bölmənin şəxsi heyəti Vətəni qoruyur. Müharibə şəraitində olan ölkənin ordusunun əsgərinin mərd və qorxmaz olması, Vətənini sayıqlıqla qoruması hamımızı qürurlandırır.

Müşahidə postunda əsgər Elbrus Fətəliyev ön xətdə xidmət etməsindən şərəf duyduğunu bildirir: "İçimizdə o qədər Vətən, torpaq sevgisi var ki, bu yolda ölüm də bizi qorxutmur."

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan əsgər Həmid Mürvətov bildirir ki, torpaqları azad etmək hərb elminin sirlərini mənimsəməkdən keçir: "Bunun üçün zabitlərimizə borcluyuq. Onlar bizlərə hərb elminin sirlərini öyrətməklə bərabər, daim mənəvi dəstək də göstərirlər. Biz daim orduya bağlı olan zabitlərimizdən ilham alırıq. Azərbaycan əsgəri öz komandirlərinə güvənir, komandirlər də öz əsgərlərinə. Düşmən aprel döyüşlərindən sonra yaxşı anlayır ki, bu birliyin qarşısında heç bir ordu dayana bilməz. Azərbaycan əsgəri torpaqlarımızı azad etmək naminə istənilən addımı atmağa, qəhrəman oğullarımızın getdiyi yolu təkrarlamağa hazırdır.

Əsgər Kamran Abdullayev söhbətə qoşulur:

- Ata-baba yurdumuz bizim üçün o qədər əziz və doğmadır ki, canımız bahasına olsa belə riskə getməyə hazırıq. Bir əsgər kimi üzərimizə düşən vəzifələri yerinə yetiririk. Axı torpaqlarımızın 20 faizi işğal altındadır. Ona görə də düşmənlə üz-üzəyik. Minlərlə qəhrəmanlıq nümunələri olan bir xalqın ordusunun əsgəri Mübarizlərimizin, Fəridlərimizin, Çingizlərimizin... döyüş yolunu təkrar etmək, hünər göstərmək arzusu ilə yaşayırıq. Onlar kimi biz də qəhrəmanlıq göstərmək istəyirik. Əminik ki, üzərimizə düşən tarixi və müqəddəs vəzifənin öhdəsindən layiqincə gələcəyik. Onun üçün müqəddəs döyüşün başlayacağı günü səbirsizliklə gözləyirik.

İmişli rayonundan hərbi xidmətə çağırılan əsgər Aleksandr Qurbanov bildirir ki, düşmənlə üz-üzə durmaq, onların təxribatlarının qarşısını almaq, nəticə etibarilə torpaqlarımızı işğaldan azad etmək ən böyük arzumuzdur. Bu günün əsgəri xalqımızın gələcəyinin qarantıdı. Azad və müstəqil yaşamaq istəyiriksə, Azərbaycan torpaqlarını qorumağa borcluyuq.

Əsgər Əlihəsən Məmmədov söhbətə başlayır: - Bu gün ön xətdə döyüş növbətçiliyi aparıram. Bir əsgər kimi dövlət və xalq qarşısında müqəddəs borcumu yerinə yetirirəm. Döyüş hazırlığı yüksək səviyyədə olan əsgər yoldaşlarım hər an, hər dəqiqə düşmən təxribatının qarşısını almağa qadirdir. Düşmən daim hiss edir ki, onun qarşısında qüdrətli, güclü bir ordunun yüksək döyüş hazırlığına malik olan şəxsi heyəti dayanıb.

Çavuş Amil Vəliyev qeyd edir ki, hərbi qulluqçularımız xalqımızın hərbi ənənələrini layiqincə davam etdirməyə hər zaman hazırdırlar. - Onu da deyim ki, səngər qəhrəmanları sevir. Əzm və rəşadətlə xidmət aparmağı əsas vəzifəmiz hesab edir, qəhrəmanlarımızın yollarını getməklə bu yurdun yeni qəhrəmanlıq səhifələrini yazmaq istəyirik.

"Ordu həyatı dözümlülük və təcrübə tələb edir. Təcrübənin və dözümlülüyün formalaşması zaman və zəhmətin hesabına başa gəlir. Qazandığımız təcrübənin hesabına əminliklə deyə bilərik ki, Azərbaycan Ordusunun şəxsi heyəti aprel və Günnüt zəfərlərini təkrarlamağa qadirdir. Azərbaycan əsgəri qarşısında duran sədləri aşmağa və işğal altında olan torpaqlarımızı azad etməyə tələsir", - deyə çavuş Amil Vəliyev bildirir.



Dağlarla insan arasında bir müqayisə aparmalı olsaq, yəqin burada Vətən üçün xidmət edənləri seçilmiş insanlara bənzətmək olar. Vətən sevgisi ilə vətəndaşlıq mücəmməsi olan oğullarımız öz mənəvi ucalıqlarında qərar tutub Azərbaycan xalqını, dədə-baba yurdunu qoruyurlar. Azərbaycan əsgəri Vətənin arzuladığı kimi xidmət aparır. Azərbaycan əsgəri xalqımıza aprel və Günnüt zəfərlərinin davamı olan Qələbə bəxş edəcək. Onlar Ali Baş Komandanımızın əmri ilə Böyük Qələbəyə hazırlaşırlar.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", fotolar Coşqun CƏFƏROVUNDUR**

# "Heydər Əliyev ideyalarına sadiqik"

## devizi altında ümumordu xatirə tədbirləri aylığına start verilib

*Ulu öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü ilə bağlı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, "Heydər Əliyev ideyalarına sadiqik" devizi altında ümumordu xatirə tədbirləri aylığına start verilib.*




AZƏRTAC xəbər verir ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən tədbirin iştirakçıları və qonaqlar "Heydər Əliyev muzey-lektoriyası"nı ziyarət edərək, Ümummilli Liderimizin Vətənə və xalqa həsr olunmuş mənalı ömrünün müxtəlif anlarını əks etdirən ekspozisiya ilə tanış olublar.

Sonra Ulu Öndərin və şəhidlərimizin xatirəsi ehtiramla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət himnimiz oxunub.

Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyevin əbədiyyətə qovuşduğu vaxtdan 15 il ötür. Lakin Azərbaycan xalqının tarixində və taleyində müstəsna rolu və xidmətləri olmuş bu böyük siyasi və dövlət xadimi, hələ sağlığında canlı əfsanəyə çevrilmiş əbədiyaşar Ali Baş Komandanımız canından əziz bildiyi, uğrunda fədakarlıqlar göstərdiyi Azərbaycanı və qədirbilən xalqımızı cismən tərk etsə də, bu dahi şəxsiyyət xatirələrdə, ürəklərdə yaşayır. Müstəqil Azərbaycan dövləti və xalqımız var olduqca Heydər Əliyevin xatirəsi də əbədi yaşayacaq.

Qeyd olunub ki, ötən 15 il ərzində xalqımız, eləcə də onun ayrılmaz hissəsi olan ordumuzun şəxsi heyəti Heydər Əliyev ideyalarına həmişə sadiq olub, onun yolu ilə daha parlaq gələcəyə doğru inamlı addımlar atıb. Ümummilli Liderimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanımızın daha da inkişafına, tərəqqisinə, regionun ən güclü dövlətlərindən birinə çevrilməsinə nail olub.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Ulu Öndər ilə görüşlərini yada salıb, xatirə tədbirləri aylığının əhəmiyyətindən danışıb. Rasim Əliyev birlik, birləşmə, hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək silsilə tədbirlər barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, aylıq çərçivəsində Heydər Əliyevin adı ilə bağlı ünvanlara şəxsi heyətin ekskursiyaları təşkil olunacaq, dahi rəhbərin silahdaşları ilə görüşlər keçiriləcək, əbədiyaşar liderimizin Fəxri xiyabandakı məzarı, Heydər Əliyev muzey və mərkəzləri ziyarət olunacaq. Həmçinin "Heydər Əliyev irsini öyrənirik" mövzusunda silsilə məşğələlər çərçivəsində məruzə və mühazirələr oxunacaq, filmlərin kütləvi nümayişi və Ulu Öndərə həsr olunmuş əsərlərdən ibarət proqramlar təşkil ediləcək. Ümumiyyətlə, "Heydər Əliyev ideyalarına sadiqik" devizi altında keçirilən xatirə tədbirləri aylığı Ulu Öndərə əsgəri ehtiramın və Heydər Əliyev ideyalarının əbədiyaşarlığının nümayişinə çevriləcək.



Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə Ulu Öndərimizin Vətən və millət qarşısında misilsiz tarixi xidmətlərini minnətdarlıq hissi ilə xatırlayıb. A.Rəhimzadə Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrünün Heydər Əliyevin möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu vurğulayıb. O, bütün ömrünü Azərbaycan dövlətinin qorunmasına, möhkəmləndirilməsinə və inkişafına həsr etmiş, tariximizin ən böyük simalarının ön cərgəsində dayanmaq haqqı qazanmış Heydər Əliyevin XX əsrin sonlarında və XXI əsrin əvvəllərində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamvericisi və təşkilatçısı olduğunu deyib.

A.Rəhimzadə diqqətə çatdırıb ki, Heydər Əliyevin dünya siyasət xəzinəsinə daxil olmuş 60 illik titanik fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu ürəyində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində müstəsna rol oynayıb. Heydər Əliyev bu gün də yaşayır, gələcəkdə də yaşayacaq. Dahi rəhbərin ideyalarına həmişə sadiq olan xalqımız, eləcə də ordumuzun şəxsi heyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə daha xoşbəxt, firavan gələcəyə doğru inamla irəliləyəcək.

Heydər Əliyev Mərkəzinin direktorunun müşaviri Rəşad Kərimov Ulu Öndərimizin əbədiyyətə qovuşduğu 15 il ərzində Ümummilli Liderimizin xatirəsinin həmişə əziz tutulduğunu, həm ölkəmizdə, həm də Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda adının əbədiləşdirildiyini qeyd edib. O bildirib ki, Prezident İlham Əliyevin 2006-cı il 29 dekabr tarixli Sərəncamı əsasında yaradılan Heydər Əliyev Mərkəzi memarlıq üslubuna görə nadir mədəniyyət ocağıdır. Mərkəzdə xalqımızın böyük oğlu Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması istiqamətində sistemli iş aparılır. Burada fəaliyyət göstərən "Azərbaycan inciləri", "Mini Azərbaycan", "Azərbaycana xoş gəlmisiniz" və digər sərgi zallarını, xüsusən də zəngin Heydər Əliyev muzeyini hər il yüz minlərlə yerli və əcnəbi vətəndaş ziyarət edir. Burada həm respublika, həm də beynəlxalq əhəmiyyətli mötəbər tədbirlər həyata keçirilir. Dizayn və tətbiq olunan yeni texnologiyaları ilə fərqlənən Heydər Əliyev muzeyində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrləri əks etdirilir. Burada Heydər Əliyevin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik dövründə həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir, Ümummilli Liderin şəxsi əşyaları tamaşaçıların böyük marağına səbəb olur.

Rəşad Kərimov diqqətə çatdırıb ki, Müdafiə Nazirliyinin təşkil etdiyi xatirə tədbirləri aylığı çərçivəsində Heydər Əliyev Mərkəzinin də qapıları Azərbaycan Ordusunun şəxsi heyətinin



üzünə həmişəki kimi açıq olacaq və hərbi qulluqçular burada Ümummilli Liderimizin zəngin irsini daha yaxından mənimsəmək imkanı əldə edəcəklər.

Ulu Öndərimizin hələ ötən əsrin 70-ci illərində Azərbaycanın gələcəkdə müstəqilliyini bərpa edəcəyini öncədən duyaraq uzaqgörənliklə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk kursantlarından və məktəbin ilk bayraqdarı olmuş ehtiyatda olan polkovnik, Azərbaycanın Vətən müharibəsi veteranı Şair Ramaldanov Ulu Öndərlə ilk görüşlərini xatırlayıb və ordumuzun tarixinə şanlı səhifə kimi yazılmış Horadiz əməliyyatından danışıb. O deyib ki, 1993-cü il noyabrın 2-də Ulu Öndərimizin televiziya və radio vasitəsilə xalqa müraciəti ordu quruculuğunda yeni mərhələnin başlanğıcını qoydu. Əsl Azərbaycan Ordusu məhz bu müraciətdən sonra yaranmağa, formalaşmağa, qüdrətlənməyə başladı. Azərbaycan Silahlı Qüvvələri Füzuli, Tərtər, Ağdam istiqamətlərində bu vaxtadək görünməmiş qəhrəmanlıqlar nümayiş etdirdi. Ali Baş Komandanın ön səngərlərə səfərləri, döyüşçülərlə görüşləri, onların problem və qayğıları ilə yerindəcə tanış olması öz bəhrəsini verdi. Ulu Öndərin xeyir-duası ilə işğal edilmiş əraziləri düşmən tapdağından azad etmək üçün üzərində "Heydər Əliyev uğrunda irəli!" sözləri yazılmış zirehli texnikalarla hücuma keçdik. 1993-cü il dekabrın sonu və 1994-cü ilin ilk yanvar günlərində Ali Baş Komandan Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən Horadiz əməliyyatı uğurla nəticələndi. Horadizdə və işğaldan azad edilən digər yaşayış məntəqələrində həyat yenidən canlanmağa başladı, infrastruktur yaradıldı, qaçqınlar, köçkünlər yurd-yuvalarına qayıtdılar. Son 15 il ərzində işə Prezident İlham Əliyevin Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirməsi 22 ildən sonra aprel zəfərinin qazanılmasına zəmin yaratdı. Aprel döyüşləri Horadiz zəfərinin davamıdır və əminik ki, işğal altında olan digər torpaqlarımız da tezliklə azad olunacaq, Azərbaycanımızın ərazi bütövlüyü təmin ediləcək.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun rəhbərliyi ilə bir qrup veteran çıxışlarında Ulu Öndərlə bağlı xatirələrini bölüşüb, dahi rəhbərin veteran hərəkatına göstərdiyi diqqət və qayğını minnətdarlıqla yada salıblar. Onlar veteranları "Azərbaycanın qızıl fondu" adlandıran Heydər Əliyevin Vətənimizin, xalqımızın, dövlətimizin xilaskarı olduğunu diqqətə çatdırıblar.

Xalq artistləri Niyaməddin Musayev, Zaur Rzayev, Samir Cəfərov və başqaları Ulu Öndərə həsr olunan, eləcə də dahi şəxsiyyətin sevdiyi mahnıları böyük coşqu ilə ifa ediblər.

"Heydər Əliyev ideyalarına sadiqik" xatirə tədbirləri aylığının açılışına həsr olunmuş təntənəli mərasim xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının 2003-cü il aprelin 19-da Ulu Öndərin qarşısında ilk dəfə ifa etdikləri "Naxçıvanskilər marşı"nın (sözləri A.Qurbaninin, musiqisi H.Mirməmmədlinindir) oxunması ilə başa çatıb.

# Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin II plenumu keçirildi



*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin başa çatmaqda olan 2018-ci il üçün təşkil etdiyi II plenumu keçirildi. Plenumda Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət İdarə və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri və həmkarların üzvləri iştirak edirdilər.*



Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, habelə BHİK-nin dünyasını dəyişmiş üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Komitənin sədri Abiyat Ağadadaşova hesabat məruzəsində bildirdi ki, 2018-ci il ölkəmiz üçün çox mühüm və əlamətdar hadisələrlə yadda qalacaq. "Belə ki, aprelin 11-də keçirilən Prezident seçkilərində cənab İlham Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Fevralın 5-də AHİK-in V qurultayı keçirildi və millət vəkili Səttar Möhbalıyev yenidən AHİK-in sədri seçildi. Qurultayda qəbul olunan qərarlardan irəli gələn tapşırıqları biz də layiqincə yerinə yetirməyə çalışırıq.

Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Ordusunun yaranmasının və Bakının azad olunmasının 100 illik yubileyləri qeyd olundu və bu münasibətlə ölkəmizdə iki möhtəşəm parad keçirildi. 26 iyunda Azadlıq meydanında keçirilən təntənəli hərbi parad ordumuzun qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Digər sahələrlədə olduğu kimi, ordu quruculuğunda da islahatlar aparılmış, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi respublikanın müdafiə qabiliyyətinin durmadan möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Ordu, ordu quruculuğu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət yetirdiyi ən mühüm sahələrdən biridir. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bunu 2016-cı ilin aprel döyüşləri ilə yanaşı, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasında Günnüt əməliyyatı da sübut etdi. Prezidentimizin dediyi kimi: "İşğal edilmiş torpaqlarda - Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir". İşğaldan azad olunan mühüm əhəmiyyətli yüksəkliklər bu gün Azərbaycan Ordusunun tam nəzarətindədir. Ali Baş Komandanın rəhbərliyi ilə görülən bütün tədbirlər ordu quruculuğunda aparılan məqsədyönlü siyasətin nəticəsidir".

Komitə sədri bu il ərzində üzvlərinin sayının 14216 nəfərdən 15323 nəfərə çatması və üç yeni təşkilatın yaradılması haqqında da məlumat verdi.

Qurumun fəaliyyəti haqqında Abiyat xanım bildirdi ki, komitənin fəaliyyəti çoxşaxəlidir. "Bizim əsas vəzifəmiz ittifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və qanuni hüquqlarını müdafiə etmək, yeni təşkilatlar yaratmaq, kollektiv müqavilələrin vaxtında bağlanması və onun müddəalarının yerinə yetirilməsinə ciddi nəzarət edərək onları maarifləndirib və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

Biz, Birləşmiş Həmkarlar İttifaqı Komitəsi olaraq, vaxtaşırı yerlərə gedir, təşkilatların bu sahədə gördüyü işləri nəzərdən keçirir, tövsiyələrimizi veririk. Onların həllində çətinlik yaranarsa, hərbi hissə komandirləri, nazirliyin müvafiq idarə rəhbərləri ilə görüşərək danışıqlar aparırıq, lazımi köməyimizi əsirgəmirik".

Üzvlərinin sağlamlığı ilə daim yaxından maraqlanan və lazımi



köməkliyi göstərən komitə sədri qeyd etdi ki, il ərzində Dövlət Sosial Müdafiə Fondu hesabına 30 nəfərə sanator-kurort və 73 nəfərə büdcə hesabına ailəvi istirahət evlərinə, turist bazalarına yollayışlar verilib. "Bununla yanaşı, respublikamızın müxtəlif istirahət guşələrinə təşkil olunan kütləvi gəzintilərdə 600-650 nəfər ailəvi olaraq iştirak edib. Komitəyə daxil olan maddi yardım ərizələrinə də köməklik göstərilib.

Hər il Yeni il və Novruz bayramlarında ittifaq üzvlərinin azyaşlı övladlarına hədiyyəli biletlər pulsuz olaraq paylanılır.

Komitə sədri onu da qeyd etdi ki, həmişəki kimi Qələbə Günündə İkinci Dünya müharibəsi veteranları ilə bayram süfrəsi arxasında görüşlər keçirilib, onlara pul mükafatları təqdim olunub. "Artıq 3-cü dəfədir ki, üzvlərimiz qanbağışlama aksiyasında iştirak edirlər. Aksiyanın keçirilməsi hospitalda müalicə olunan zabit və əsgərlərimizə mənəvi dəstəkdir".

Davamlı olaraq bütün bölgələrdə, əlalxüsus da ön xətdə əsgərlərimizə baş çəkdiyini vurğulayan natiq iş planına uyğun olaraq təşkilat və komissiya sədrlərinin, üzvlərinin maarifləndirilməsi, sosial hüquqları ilə bağlı biliklərin artırılması məqsədi ilə müxtəlif seminarlar keçirildiyini bildirdi. "Onlar il ərzində Əmək və Sosial Münasibətlər Akademiyasında təşkil olunan kurslarda biliklərini artırıblar. Asudə vaxtlarının səmərəli təşkilinə daim diqqət yetirən komitə il ərzində idmanın müxtəlif növləri üzrə yarışlar keçirib. Qalibləri fəxri fərman, pul və qiymətli hədiyyələrlə mükafatlandırıb. Ümumiyyətlə, il ərzində BHİK tərəfindən keçirilən milli-mənəvi dəyərlərimizin təbliğinə yönəldilmiş "Gücümüz birlikdədir" rəsm müsabiqəsi, "Narkomaniyaya yox" və "Ümumdünya Əməyin Mühafizəsi Günü"nə həsr olunmuş "Əməyin mühafizəsi: Gənc işçilər daha həssasdır" mövzusunda seminarlar təşkilat üzvlərinin istər dünya duyumunun, istərsə də vətəndaşlıq mövqeyinin formalaşmasında əhəmiyyətli olub.

AHİK-in "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında keçirilən müsabiqədə "N" hərbi hissəsi qaliblər sırasında olmuş və onlara bir ədəd "Samsung" markalı televizor təqdim olunmuşdur."

Abiyat xanım bu işlərin görülməsində təşkilatlarına daim əməli köməklik, maddi və hüquqi yardım göstərən Müdafiə Nazirliyinə, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasına, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinə minnətdarlığını bildirdi.

Abiyat xanım hesabat çıxışının sonunda bildirdi ki, komitənin kollektivi ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sadiq qalaraq və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasəti dəstəkləyərək, xalq ilə ordu birliyinin möhkəmləndirilməsinə bundan sonra da öz töhfəsini verəcək.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri Hikmət Osmanov bildirdi ki, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ən böyük və ən çox üzvü olan təşkilatlardan biridir. "Təşkilat üzvlərinin sayının bir il ərzində 1000 nəfərdən çox artması böyük nailiyyətdir. Həmkarlara üzv olanların sosial-iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin təmin edilməsində biz də yaxından iştirak edirik. İctimai təşkilat olaraq öz nizamnaməmizə uyğun olaraq ildə bir dəfə üzvlərimiz qarşısında gördüyümüz işlər haqqında açıqlamalı hesabat veririk...".

Hikmət Osmanov komitə üzvlərinin hüquqlarının müdafiə olmasından, respublikamızda Həmkarlar təşkilatına olan münasibətdən, Prezidentin Azərbaycan Həmkarlar İttifaqı hərəkatına olan böyük hörmət və dəstəyindən, verdiyi sərəncamlarda əmək məcəlləsinə olan dəyişikliklərdən danışdı.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Aydın Əyyubov qeyd etdi ki, komitə ölkə həyatında fəal iştirak edir. "Həmkarlar İttifaqının Komitəsi Müdafiə Nazirliyinin rəhbərliyi ilə bərabər dövlət rəhbərliyi tərəfindən qoyulan tapşırıqların icrası sahəsində faydalı işlər görür. Məruzə və çıxışlarda qeyd edilsə də, mən də bildirməliyəm ki, 2018-ci il hər birimiz üçün əlamətdar bir il oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdi. Bu, dövlətçilik tariximizdə əhəmiyyətli bir sərəncam kimi tarixləşdi. Bununla bağlı orduda da silsilə tədbirlər həyata keçirildi. 2018-ci ili həm də Azərbaycan Ordusunun 100 illiyi kimi qürurla yaşadıq. Bu tarixi günə həsr olunmuş möhtəşəm paradı böyük qürur hissiylə izlədik. Bir daha əmin olduq ki, ordumuz güclüdür, torpaqlarımızı işğaldan azad etməyə qadirdir...".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sektor müdiri Əbülfət Məhərrəmov Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təqdirəlayiq bir qurum olduğunu vurğuladı.

Müdafiə Nazirliyi Maliyyə-Büdcə İdarəsinin əməkdaşı, ehtiyatda olan polkovnik Sahib Qarayev komitənin fəaliyyətinin ildən-ilə daha da mütəşəkkil hal aldığını qeyd etdi.

Sonda məruzə ilə əlaqədar çıxışlarda il ərzində görülmüş işlər və qarşıda duran vəzifələr geniş təhlil edildi, suallar cavablandırıldı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

*Ordu və cəmiyyət*

# “Xalqımızı qələbə müjdəli xəbərlərlə sevindirin!”

*Rubrikamızın qonağı Milli Məclisin deputatı, Xalq yazıçısı, tanınmış publisist və ictimai xadim Elmira Axundovadır.*



**- Elmira xanım, ordumuzla ictimaiyyət arasında əlaqələrə sizin də münasibətinizi öyrənmək maraqlıdır...**

- Ordu-ictimaiyyət əlaqələri bu gün dünyanın ən inkişaf etmiş ordularında belə böyük əhəmiyyət kəsb edən bir məsələdir. O cümlədən, bizim ordumuzda da bu məsələ hər zaman aktual olub. Ordu quruculuğunda ordu-cəmiyyət əlaqələrinin inkişafı, əsas şərtlərdən biridir. Və əsas şərt kimi də ordumuzda yüksək səviyyədə yerinə yetirilir. Bu gün Azərbaycan Ordusu cəmiyyətə açıqdır. Orduda aparılan genişmiqyaslı islahatlar ictimaiyyətə çatdırılır. Cəmiyyət orduya daha çox təmas göstərir. Yazıçılar, şairlər, deputat və digər ictimaiyyət nümayəndələri orduya səfərlər təşkil edir, hərbçilərimizlə görüşür, onların qayğıları ilə yaxından maraqlanırlar. Çox təqdirəlayiq haldır ki, orduda "Açıq qapı" günləri keçirilir və həmin günlərdə əsgər valideynləri, yaxınları, doğmaları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan şəraitlə tanış olurlar. Orduda çox gözəl ənənə qoyulub. Biz ordumuzla fəxr edirik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan Ordusu nəinki Cənubi Qafqazda, həmçinin dünyada ən güclü ordular sırasındadır.

**- Dağlıq Qarabağ münaqişəsi başlayan gündən Elmira xanımı söz səngərində döyüşən gördük. İndi bizi o illərdən 30 illik zaman kəsiyi ayırır. Həmin o ağır informasiya mühasirəsində yaşadığımız illəri necə xatırlayır Elmira xanım?**

- Təbii ki, hər bir yaradıcı insanın - şairin, yazıçının, jurnalistin öz maraq dairəsi var. Çox düz dediniz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayanda hərbi sahədən daha çox yazan jurnalistlərdən biri olmuşam. O zaman hər birimiz torpağımızda gedən müharibədən - xalqımıza qarşı aparılan ədalətsiz və elan olunmamış müharibədən yazırdıq. Mən 1990-1994-cü illərdə həm "Literaturnaya qazeta"nın, həm də rus dilində efirdə səslənən "Svoboda" radiosunun müxbiri kimi bütün döyüş bölgələrində olmuşam. Həftədə bir dəfə ön xəttə gedib, orada döyüşən hərbçilərimizlə görüşüb, onlar haqqında həm qəzet, həm də radio üçün material hazırlayırdım. Ən çətin dövrlər idi. Azərbaycanın haqq səsi nəinki dünyada, hətta keçmiş Sovet məkanında belə eşidilmirdi. Mənfur qonşularımız min cür fitnə-fəsadla, təbliğatı birtərəfli aparmaqla xalqımızı informasiya mühasirəsində saxlamağa çalışırdılar. Lakin bu proses uzun çəkmədi. Xalqımızın belə bir deyimi var: "Haqq nazilər, üzülməz". 2003-cü ildə dərc edilən "Bu, bizik" kitabım, demək olar ki, Qarabağ müharibəsinə həsr olunub. Bu kitab mənim ilk kitabımdır. Burada çap olunan 30-a yaxın məqalədə erməni separatizmini ifşa edən məqamlar öz əksini geniş tapıb, özü də onların hamısı vaxtilə Rusiya mətbuatında çap olunub. "Azadlıq" radiosunda ən böyük verilişlərim Qarabağda baş verən qanlı hadisələrlə və xalqımızın başına gətirilən müsibətlərlə bağlı idi. Ötən əsrin 80-ci illərinin sonlarında "Literaturnaya qazeta"nın müxbiri bədnam Zori Balayan bu mətbu orqanı öz ruporuna çevirmişdi. Lakin həmin qəzetdə dərc edilən Qarabağ həqiqətləri və ölkəmizə qarşı elan olunmamış bu ədalətsiz müharibə barədə yazılarım xalqımıza qarşı aparılan informasiya mühasirəsini yarırdı. O dönəmdə bunlar respublikamızın ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılanırdı. Xalq yazıçımız Anarın dili ilə desək, "Elmira Axundova Zori Balayan üzərində qələbə qazandı. Çünki onun arxasında həqiqət dayanırdı və bir də Vətənə böyük sevgisi".

**- Siz Ümummilli Liderimizin ilk bioqraflarından birisiniz. Eyni zamanda "Heydər Əliyev. Şəxsiyyət və Zaman" adlı çoxcildlik roman-tədqiqat əsərinizi ömrünüzün ən mühüm layihəsi hesab edirsiniz. Bu əsərinizdə də hərbi mövzulara, Qarabağ müharibəsi ilə bağlı məqamlara geniş yer ayırmısınız. Bu haqda nə deyə bilərsiniz?**

- Yaradıcılığımın sırf 15 ilini respublikamızda gedən siyasi proseslərə, ümummilli lider Heydər Əliyev obrazını bədii ədəbiyyatda əbədiləşdirməyə həsr etmişəm. Ulu Öndər haqqında 7 cildliyi yaradanda da hər bir cilddə hərbi sahəyə bir fəsil ayırdım. "Heydər Əliyev və Sovet ordusu", "Heydər Əliyev və ordu quruculuğu", "Heydər Əliyev və Qarabağ problemi", "Heydər Əliyev və hərbi təhsil" və s. misal göstərə bilərəm. Mən bu fəsilləri publisistik formada işləmişəm. Çünki mən publisistəm. Bu, romandı, amma bu roman - tədqiqatdı.

**- Xalq yazıçısı kimi Qarabağ müharibəsi mövzusunda yazılan əsərlər ürəyinizcədirmi?**

- Bu mövzu geniş işlənilib, hələ də işlənilməkdədir. Aqil Abbasın "Dolu" romanını oxumuşam. Çox təsirlidir. Yaxud Xalq yazıçısı Elçinin "Bayraqdar" əsəri Qarabağ müharibəsinin acı nəticələrini özündə geniş əks etdirir. Bu mövzuda təsirli bədii və sənədli filmlər çəkilib. Bütün bu materiallar ordu quruculuğumuza xidmət edir. O ki qaldı epoxal əsərlərə, necə ki, böyük rus yazıçısı Lev Tolstoyun yazdığı "Hərb və sülh" romanı kimi əsərlərin arayaərsəyə gəlməsinə zaman lazımdır. Ona görə də bu mövzuya gərək uzaq məsafədən, uzaq tarixdən yanaşaraq qiymət verəsən. Müharibə bitməyib, müharibə indi də davam edir. İnanırıq ki, müharibə bizim qələbəmizlə sona çatacaq. Qüdrətli Azərbaycan Ordusu erməni işğalında olan tarixi torpaqlarımızı azad edəcək! Bax, bu qələbələrdən sonra böyük əsərlər yazılacaq! Belə hesab edirəm ki, əsas kitablar da, əsas kinolar da qabaqdadır. Ədəbiyyat tarixinə nəzər saldıqda görürük ki, dünyada ən dəhşətli və ən dağıdıcı müharibə sayılan İkinci cahan savaşından sonra keçmiş Sovet məkanında böyük əsərlər yaradıldı. Doğrudur, bu əsərlər Sovet ideologiyasına xidmət etsə də, Hitler faşizmi üzərində tarixi qələbədə xalqımızın qəhrəmanlıq salnaməsi də öz əksini geniş tapdı.

**- Yaradıcılığında hər zaman hərbi mövzuya böyük önəm verən Elmira xanım bir həmkar olaraq bəs ordumuzun aprel qələbəsinin əhəmiyyətinə necə şərh verir?**

- 1994-cü ilin yanvar, fevral, mart, aprel döyüşlərini çox xatırladır. Hər kəsdə yenə də ruh yüksəkliyi, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə inam və ərazi bütövlüyümüz, torpaqlarımızın azadlığı uğrunda irəli! Bu, onu göstərir ki, ordumuzun döyüş ruhu yüksəkdir. Ordumuz öz gücünü aprel döyüşlərində bir daha göstərdi. Aprel döyüşləri onu da göstərdi ki, biz qısa müddətdə torpaqlarımızı azad edə bilərik. Bu ilin mayında Naxçıvanda Günnüt əməliyyatı şanlı hərb tariximizin döyüş salnaməsinə yazıldı. Azərbaycan Ordusunun hər iki uğurlu əməliyyatı göstərdi ki, peşəkar və yüksək döyüş hazırlığına malik hərbçilərimiz illərdir Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərimizi azad etməyə qadirdir. Aprel döyüşləri xalq-ordu birliyinin sarsılmazlığını bir daha göstərdi. Hektarlarla ərazimizin düşməndən azad olunmasına nail olduq. Erməni hərbçiləri silahlarını atıb qaçırdılar. Bilirsiniz, bütün bunlar nə deməkdir? Xalqımızın haqq işi uğrunda qələbəsi! Çünki o torpaqlar bizim tarixi torpaqlarımızdır. Tezliklə bu torpaqlar azad olunmalıdır. İstər sülh, istərsə də hərb yolu ilə. Aprel qələbəsi də cəmiyyətdə torpaqlarımızın tezliklə azad olunacağına əminlik yaratdı. Xalqımız bayram əhval-ruhiyyəsi ilə bu qələbəni qeyd etdi. Azərbaycanın bütün bölgələrində bayram əhval-ruhiyyəsi hökm sürürdü. Cəmiyyətdə həmrəylik var. Cəmiyyətdə ordu-xalq birliyi mövcuddur. Ermənistanda isə belə yekdillik yoxdur. Ölkəmizin Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli istiqamətində böyük işlər aparır. Axırıncı Brüsseldəki NATO sammiti göstərdi ki, ən böyük hərbi təşkilat bu mövqedə bizim tərəfimizdədir. Çünki o, birmənalı şəkildə öz sənədlərində ərazi bütövlüyü məsələsini qoyub və orada qeyd olunub ki, məsələ yalnız ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Digər variant ola da bilməz. Bu da nüfuzlu təşkilatın bizə çox böyük dəstəyidir. Ona görə də inanıram ki, vaxt, zaman Azərbaycanın xeyrinə işləyir. Bu gün Ermənistanda faktiki olaraq cəmiyyət dağılır. Orada birlik yoxdur.

**- Azərbaycan Ordusunun şəxsi heyətinə ürək sözləriniz...**

- Biz Vətənimizin keşiyini çəkən zabit və əsgərlərimizlə fəxr edirik. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hər an hazır olan vətənpərvər hərbçilərimizə çox çətin, lakin şərəfli peşələrində əzmli və iradəli olmağı arzulayıram. Ordumuzun qəhrəman oğulları, xalqımızı qələbə müjdəli xəbərlərlə sevindirin!

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## “Ordumuzun arsenalındakı “Polonez”, “LORA” və digər silahlar düşmənin istənilən obyektini məhv edə bilər

*"Lazarev klubu"nun Yerevanda keçirilən iclasında MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin çıxışı Ermənistanın hazırkı rəhbərliyinə ünvanlanmış xəbərdarlıqdır.*

Bunu rusiyalı ekspertin fikirlərini AZƏRTAC-a şərh edən ehtiyatda olan general-leytenant Çingiz Məmmədov deyib.

Çıxışda diqqəti cəlb edən məqam ondan ibarətdir ki, V.Yevseyev hazırkı vəziyyətin Ermənistan və qondarma "Dağlıq Qarabağ respublikası"nın ordusu üçün əlverişsiz olduğunu, Azərbaycan Silahlı Qüvvələrinin isə hərbi təchizat baxımından üstünlüyünü aşkar şəkildə etiraf etməklə N.Paşinyan hökumətini illər əvvəl müəyyən olunan siyasi kursdan çıxmamağı məsləhət görməsidir. Bir sözlə, onun çıxışının əsas məğzi Ermənistan hakimiyyətinin Rusiyanın təsir dairəsindən uzaqlaşmaq cəhdlərinin bu ölkə üçün olduqca təhlükəli olduğunu anlatmaqdır. Eyni zamanda, Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan Ordusunun silahlanmasında olan “Polonez”, “LORA” və bu günədək nümayiş etdirilməyən digər silahlar Ermənistanın ərazisində istənilən obyektləri məhv etməyə qadirdir. Bu səbəbdən də rəsmi İrəvan hazırkı reallığı dərk etməli, müharibə ritorikasından əl çəkməli və münaqişənin həllində konstruktivlik nümayiş etdirməlidir. Əks halda, Ermənistan Azərbaycan Ordusunun gücünü hiss edəcək", - deyə general-leytenant Ç.Məmmədov bildirib.

## Dekabrın 1-dək Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrin Yardım Fonduna cari il dekabrın 1-dək 95.491.341,61 AZN, 213.577,88 ABŞ dolları, 14836,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# Hərbi hissədə tədbir keçirildi

*"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi ilə Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsində Beynəlxalq Əlillər Gününə həsr olunmuş tədbir keçirildi.*



Hərbi hissənin komandiri tədbir iştirakçılarını salamladı, qonaqların gəlişinin məqsədini açıqladı. "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev çıxışında bildirdi ki, 3 Dekabr BMT tərəfindən elan olunmuş Beynəlxalq Əlilliyi olan insanların günüdür. Bu gün bayram etmək üçün deyil, bütün dünya ictimaiyyətinin diqqətini əlilliyi olan şəxslərin problemlərinin həllinə və hüquqlarının müdafiəsinə cəlb etmək məqsədi daşıyır. O, ictimai birliyin bu gün münasibəti ilə əvvəllər müxtəlif yerlərdə tədbirlər keçirdiyini, bu il isə hərbi hissədə əsgərlərimiz qarşısında ictimai birliyin Mədəniyyət şöbəsinin üzvlərinin iştirakı ilə konsert proqramı ilə çıxış etməklə öz töhfələrini vermək istədiklərini söylədi.

Tahir Xudiyev onu da qeyd etdi ki, ictimai birliyin vaxtı ilə Azərbaycan Ordusunda və hüquq-mühafizə orqanlarında hərbi təlim görmüş 50-yə yaxın üzvlərinin aprel döyüşlərində Müdafiə Nazirliyinə etdikləri müraciət bu gün də qüvvədədir. Belə ki, sağlamlıq imkanlarının məhdud olmasına baxmayaraq onlar, lazım gələrsə Vətənin müdafiəsində Ali Baş Komandanın əmr və göstərişlərini hər an yerinə yetirməyə hazırdırlar.

Sonra Müdafiə Nazirliyinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova çıxış edərək bildirdi ki, əlilliyi olan insanlar arasında Qarabağ müharibəsində sağlamlığını itirərək əlil olan insanlar da var. Onlar daima dövlət qayğısı ilə əhatə olunublar. Bu gün bu tədbirdə iştirak edən "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi üzvləri arasında Qarabağ müharibəsi əlilləri və veteranları da var.

İstefada olan polkovnik Elşad Şabanov hərbi vətənpərvərlik mövzusunda çıxış etdi. Zabit və əsgərlərin daha böyük inamla xidmət etdiyinə əminliyini bildirdi. Qələbə əzmi ilə vətənpərvərlik ruhlu şeir söylədi.

Elşad Şabanov əsgərlərə hərbi elmlərə dərindən yiyələnməyi, Vətəni bundan sonra da göz bəbəyi kimi qorumağı tövsiyə edərək qeyd etdi ki, danışıqlar baş tutmazsa, yaşımıza baxmayaraq biz veteranlar da Vətən uğrunda qəti və müqəddəs döyüşlərə hazırıq.




"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin əməkdaşı, Qarabağ müharibəsi və Silahlı Qüvvələr veteranı, tibb xidməti polkovniki İlham Sadıqov hərbi hissənin şəxsi heyətini salamladı, onlara hərbi xidmətlərində uğurlar arzuladı.

Müdafiə Nazirliyi, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi və hərbi hissənin şəxsi heyətinin iştirakı ilə keçirilən tədbir konsert proqramı ilə davam etdi.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin dəvəti ilə tədbirə qatılan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələri - Nurlana Kərimli, Əmrah Məcdunov, Rəvanə Vəliyeva, Anar Əhmədov, Şəmşəd Məmmədov, musiqiçilər - Vüsal Qasımov, Kamal Abdullayev, Seymur Abdullayevin ifasında səslənən şən mahnılar da əsgərlərimizdə ruh yüksəkliyi yaratdı.

Azərbaycan və dünya ədəbiyyatına, mədəniyyətinə, tarixinə aid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə çap olunmuş 200 ədəd kitab, 170 ədəd "Vətəndaş Cəmiyyəti" jurnalı hərbi hissənin kitabxanasına hədiyyə edildi.

Hərbi hissədə vətənpərvərlik ruhunda keçirilən tədbirin yüksək səviyyədə təşkilinə görə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin sədri Tahir Xudiyev fəxri fərmanla təltif olundu.

**Məlahət ABDULLAYEVA**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi birlikdə döyüş atışlı təlim keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı təlimi keçirilib.

Ssenariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***4 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 4-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin səhra köməkçiləri Mixail Olaru, Genadi Petrika və Martin Şuster keçiriblər.

# "Bu gün Azərbaycan ən müasir silahları ala bilmək iqtidarındadır"



MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin "Lazarev klubu"nun ilk iclasındakı çıxışında səsləndirdikləri nə hərbi mütəxəssisə, nə də siyasətçiyə layiq rəy deyil. Onun məsələləri düzgün təhlil etmək üçün kifayət qədər hərbi savadı da yoxdur. Görünür, o, hər hansı bir sifarişi yerinə yetirir. Bu, onun sırf ermənipərəst mövqedə olduğunu göstərir.

Bunu yeni yaradılmış "Lazarev klubu"nun Rusiya və Ermənistanın siyasi dairələrinin nümayəndələrinin iştirakı ilə İrəvanda keçirilən ilk iclasında MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin çıxışı zamanı səsləndirdiyi fikirləri AZƏRTAC-a şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib.

Ş.Ramaldanov deyib ki, bütün bunlar diqqəti Ermənistandakı hazırkı durumdan, bu ölkənin daxili problemlərindən yayındırmağa hesablanıb. Çünki Ermənistanın indiki rəhbərliyi sırf Rusiya yox, qərbyönümlü siyasət yürütməyə meyillidir. Rusiya ilə Ermənistan arasında müəyyən soyuqluq yaranıb. Artıq Ermənistanda hər hansı bir rəhbərin fikirləri cəmiyyətdə ciddi qəbul olunmur. Yalan vədlər çoxdur. Ona görə Vladimir Yevseyev vəziyyəti müəyyən dərəcədə sabitləşdirmək və Rusiyanın maraqlarını Ermənistanda göstərmək üçün bu addımı atıb. Bu addımın təşkilatçıları da, iştirakçıları da Rusiyada yaşayan ermənilər və ermənipərəst şəxslərdir. Ona görə də Vladimir Yevseyevin səsləndirdiyi fikirlər, ilk növbədə, daxili auditoriyaya hesablanıb. Məqsəd Ermənistanın qərbə və ABŞ-a yönəlmiş istiqamətini müəyyən dərəcədə dəyişdirməkdir.

"Deyə bilərəm ki, Ermənistan Rusiya olmadan heç nə edə bilməz. Ermənistan heç vaxt müstəqil olmayıb. Bu ölkənin nə müstəqil siyasəti olub, nə də rəhbərləri öz fikirlərində heç vaxtı müstəqil olmayıblar. Onlar ancaq sifariş yerinə yetirirlər və ona görə də acınacaqlı vəziyyətdədirlər. Vladimir Yevseyev "İsgəndər" raketləri və onların imkanları barədə rəy söyləyəcək qədər peşəkar hərbçi deyil. Bir-iki ədəd "İsgəndər" əməliyyat-taktiki raket kompleksinə sahib olan Ermənistan silahlı qüvvələrini bu gün Azərbaycan Ordusu ilə müqayisə etməyin özü savadsızlıqdır. Azərbaycan Ordusu bu gün dünyada ən güclü 50 ordu sırasındadır. Bu, ən nüfuzlu statistik qurumların verdiyi qiymətdir və Ermənistanın "İsgəndər" raketlərini əldə etməsindən sonra açıqlanıb. Ermənistan isə bu göstərici üzrə sonuncu yerlərdədir. Vladimir Yevseyev bilməlidir ki, Silahlı Qüvvələrin gücü və qüdrəti "İsgəndər"lərlə ölçülmür. Digər tərəfdən, "İsgəndər"lərin Ermənistana məxsus olub-olmaması da sual altındadır. Biz onları ancaq paradda gördük və heç bir təlimdə bu raketləri görə bilmədik", - deyə ehtiyatda olan polkovnik bildirib.

Ş.Ramaldanov qeyd edib ki, bu gün Azərbaycanın Belarusdan aldığı "Polonez" sistemləri "İsgəndər" raketlərindən nəinki geri qalmır, hətta bəzi parametrlərdə onları böyük fərqlə üstələyir. Ona görə mövcud pariteti bu formada qiymətləndirməyin özü də savadsızlıqdır. "Polonez"lər yeni tipli silahdır. Raket paritetini nəzərə alsaq və Azərbaycanın bu tipli silahlarını Ermənistandakılarla müqayisə etsək, deyə bilərik ki, ölkəmiz düşməndən ən azı 8-9 dəfə üstündür.

"Biz "İsgəndər"lərə qarşı ən müasir hava hücumundan müdafiə sistemləri almışıq. Bu sistemlər artıq Azərbaycandadır. Əgər Ermənistanın "İsgəndər"ləri varsa, Azərbaycanın da "Polonez"ləri və hava hücumundan müasir müdafiə sistemləri var. Bu, düşmənin Azərbaycanın hava məkanına zərbə endirmək imkanlarını sıfıra endirir. Azərbaycanın iqtisadi potensialı, hərbi büdcəsi bu gün ən müasir silahları ala bilməyimizə imkan verir.

Ermənistan isə silahlanmanı ancaq kredit yolu ilə həyata keçirməyə ümid edir. Ermənistan müdafiə nazirinin dediyinə görə, bu ölkə may ayından bəri silah ala bilmir. Çünki ölkədə ciddi maliyyə problemləri mövcuddur. Bu silahların kredit yolu ilə alınması üçün hələ də danışıqlar aparılır və bunun necə nəticələnəcəyini zaman göstərəcək. Əgər bu gün Ermənistanın birinci şəxsi əsgərlərinin alt paltarlarının olmamasından narahatdırsa, bu, düşmən ordusunun durumunun acınacaqlı olduğunu göstərir. Belə vəziyyətdə olan bir ordu nə bu gün, nə də gələcəkdə öz arsenalını Azərbaycan kimi yeni və müasir silahlarla təchiz edə bilməz".

# Hərbi ixtisaslı sürücü müdavimlərdən ibarət komandalar arasında beşnövçülük yarışları keçirilib

*Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) xüsusi hərbi ixtisaslı sürücü müdavimlərdən təşkil edilmiş komandalar arasında beşnövçülük üzrə hərbi-texniki idman yarışı keçirib.*

AZƏRTAC xəbər verir ki, yarışın açılışında çıxış edən Cəmiyyətin sədri Niyazi Eynalov ilin əvvəlindən MMC-nin müxtəlif layihələr həyata keçirərək vətəndaşlarda idmanın hərbi-tətbiqi növünə marağın artırılmasına töhfə verməyə çalışdığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin gənc nəslin fiziki və mənəvi hazırlığına, hərbi-tətbiqi növün inkişafına dəstəyi və fikirləri Cəmiyyətin həyata keçirdiyi layihələrin əsas istiqamətini müəyyənləşdirir. Bu məqsədlə MMC-də atıcılıq kursu da yaradılıb.



Yarış barədə məlumat verən Niyazi Eynalov vurğulayıb ki, hər tədris dövründə müdavimlərlə təşkil edilən ardıcıl yarışlar Silahlı Qüvvələrimizin sıralarında xüsusi hərbi ixtisaslı sürücü mütəxəssis kimi xidmət edəcək gələcək sürücülərin hərtərəfli hərbi hazırlıqlı formalaşdırılmasına xidmət edir.

Daha sonra Cəmiyyətin filiallarında sürücülük peşəsinin sirlərini öyrənən gələcək sürücülərdən ibarət komandalar gərgin və maraqlı idman mübarizəsi şəraitində müəyyən edilmiş normativlər üzrə turnikdə dartınma, 100 metr məsafəyə qaçış, təlim əl qumbarasını hədəfə atma, təlim-yük avtomobilinin trayektoriya üzrə idarə edilməsi, kiçik çaplı odlu silahdan 25 metrdən hədəfə atəş açma yarışlarında mübarizə aparıblar.

Yarışın nəticəsinə uyğun olaraq, Cəmiyyətin Sabunçu rayon filialının komandası birinci, Binəqədi rayon 1 nömrəli və Bakı şəhəri Nizami rayon filiallarının komandaları isə sonrakı yerlərdə qərarlaşıblar.

Qalib komandalar kubok və diplomla mükafatlandırılıb. Komandaların üzvlərinə diplom və hədiyyələr təqdim edilib.

# Milanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq

ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyasında iştirak edən Azərbaycan Respublikası Xarici İşlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikası Xarici İşlər nazirinin vəzifələrini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə dekabrın 5-də Milanda görüş keçiriləcək.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşik də iştirak edəcək.

Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

*Hərbi texnikalar, silahlar*

# REX-1 radioelektron mübarizə kompleksi



Orta sinifli və yüngül pilotsuz uçuş aparatları müxtəlif tapşırıqların yerinə yetirilməsində istifadə edilir və ən vacib obyektlərə qarşı təhlükə yaratmağa qadirdir. Bu təhlükənin qarşısını almaq və müdafiə olunmaq üçün mütləq radioelektron mübarizə sisteminin olması çox vacibdir. Hazırda bu istiqamətdə ölkədə və xaricdə buna oxşar aparatlar hazırlanmaqdadır. Bunların içərisində marağa səbəb olanı REX-1 kompleksidir. Pilotsuz uçuş aparatlarına qarşı mübarizə aparmaq üçün nəzərdə tutulan perspektiv daşınan REX-1 radioelektron mübarizə kompleksi ilk dəfə 2017-ci ilin avqustunda beynəlxalq "Armiya" texniki forumunda təqdim edilib. Bu kompleks "Kalaşnikov" konserninin tərkibinə daxil olan "Zala Aero Group Pilotsuz sistemlər" şirkəti tərəfindən hazırlanıb. Bu müasir mübarizə sistemi bir çox mütəxəssislərin və ictimaiyyətin diqqətini cəlb edib. REX-1 kompleksi bir neçə dəfə 2017-2018-ci illərdə keçirilən sərgilərdə də nümayiş etdirilib.

REX-1 kompleksi bulpap sxemi əsasında tüfəng-avtomat qismində hazırlanıb. Onun bütün elektron komponentləri MP-51K pnevmatik tüfəngdən götürülmüş plastik qundaqda quraşdırılıb. Lojanın (qundağın) daxilində radiosiqnalların formalaşma və idarəetmə cihazları, onun plastik korpusunda xüsusi akkumulyator batareyası da yerləşdirilib. Kompleksdə quraşdırılan hər bir modulun öz təyinatı var və hər biri qarşıya qoyulan konkret tapşırığa cavabdehlik daşıyır. Əgər hər hansı bir modul zədələnibsə, o yenisi ilə əvəz olunur.




REX-1 radioelektron mübarizə kompleksi yüngül və orta sinifli pilotsuz uçuş aparatlarına qarşı mübarizə aparmaq üçün təyin edilib. Onun istiqamətləndirilmiş antenaları bir çox diapazonlarda işləyə bilər, mülki rabitə radiokanallarında da.

REX-1-in digər modeli peyk naviqasiya sistemindən istifadə etməklə müəyyən tezlikdə maneələri şüalandırır. Onun nəticəsində pilotsuz uçuş aparatı özünün yerləşdiyi yeri dəqiq müəyyən edə bilmir. Pultla əlaqəni itirən və naviqasiyanın olmaması müasir pilotsuz uçuş aparatlarına işi davam etdirməyə imkan vermir.

Həmçinin şirkətin layihəsində optik-elektron məhvetmə vasitələrindən istifadə edilməsi də nəzərdə tutulub. REX-1 kompleksi vasitəsi ilə hədəfin optik cihazlarına təsir göstəriləcək, onların işləməsinə mane olacaq.

İlk optik-elektron modul yüksək gücə malik olan fənər əsasında hazırlanıb. Onun parlaq işığı neqativ olaraq pilotsuz uçuş aparatının kamerasına təsir göstərəcək və ekranın pultundan videosiqnal qəbul edən operatorun işinə mane olacaq. Bu məqsədlə də özünə optik lazer diapazonunu daxil edən ikinci moduldan istifadə edilir. Bu da kameranın normal işləməsinə mane törədir. Bəzi lazerli komplekslər öz yüksək güclərinə görə optik cihazları zədələyə və sıradan çıxara bilər. Verilən məlumata görə, bu mübarizə sistemi erqonomika nöqteyi-nəzərindən atıcı silaha oxşayır.

REX-1 kompleksinin uzunluğu 700 mm, çəkisi 4,5 kiloqramdır. Onun batareyası fasiləsiz olaraq üç saat müddətinə işləməyə və 36 ay müddətinə enerji sərfini saxlamağa qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Qahirədə ilk dəfə keçirilən "EDEX-2018" Beynəlxalq müdafiə sərgisinə 41 ölkədən 373 şirkət qatılıb



Misirdə ilk dəfə keçirilən "EDEX-2018" birinci Beynəlxalq müdafiə sərgisində 41 ölkədən hərbi texnika istehsal edən 373 şirkət iştirak edəcək.

Sərgi dekabrın 3-5-də Qahirədə keçiriləcək. "EDEX-2018" sərgisini 10 minə yaxın yüksəkrütbəli hərbçi, silah və texnika istehsalçıları, mütəxəssislər ziyarət edəcəklər. Təşkilatçıların məlumatına görə, "EDEX-2018" sərgisi hər iki ildən bir keçiriləcək.

### PKK-ya daha bir ağır zərbə



Türkiyənin təhlükəsizlik qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində Diyarbəkir vilayətinin Licə, Hani və Silvan rayonlarında PKK terror təşkilatına məxsus 4 sığınacaq və 6 mağara aşkar olunub.

Üç gün əvvəl başlanan antiterror əməliyyatı dekabrın 4-də başa çatıb. Bildirilir ki, terror düşərgəsindən çox sayda silah və sursatla bərabər, 264 kiloqram narkotik vasitə aşkarlanıb.

Kayseridə isə FETÖ-PDY terrorçu qruplaşmasına qarşı əməliyyat keçirilib, 51 nəfər həbs olunub.

### ABŞ Hərbi Dəniz Qüvvələrinin Yaxın Şərqdəki vitse-admiralının cəsədi tapılıb



ABŞ Hərbi Dəniz Qüvvələrinin (HDQ) Yaxın Şərqdəki vitse-admiralı Skott Sterninin cəsədi onun Bəhreyndəki evində tapılıb. ABŞ HDQ-nin video-bəyanatında ABŞ dəniz əməliyyatları baş komandanı, admiral Con Riçardson bildirib ki, bu gün səhər ABŞ HDQ Mərkəzi Komandanlığının komandiri və Bəhreyndə ABŞ-ın 5-ci donanmasının komandanı Skott Sterninin iqamətgahında onun cəsədi tapılıb. Həmin video-bəyanatda bildirilir ki, hadisənin qəsdən törədilmiş zorakılıq əməliyyatları ilə bağlı olması barədə heç bir dəlil yoxdur.

Vitse-admiral Sterni ABŞ HDQ-nin Bəhreyndəki 5-ci donanmasının komandanı idi.

### Ermənistanda "Su-25" hücum təyyarəsinin qəzaya uğraması nəticəsində iki pilot ölüb



Dekabrın 4-də Ermənistan silahlı qüvvələrinə məxsus "Su-25" hücum təyyarəsi uçuş-təlim tapşırığını yerinə yetirmək üçün yerli vaxtla saat 10:30-da Gümrü aeroportundan havaya qalxıb və qısa müddətdən sonra radarlardan itərək yoxa çıxıb.

Erməni KİV-ləri xəbər verir ki, ölkənin Müdafiə Nazirliyinin məlumatına görə, günorta saatlarında təyyarənin qalıqları Ermənistanın şərqindəki Maralik şəhəri yaxınlığında tapılıb. Təyyarəni idarə edən Ermənistan hərbi hava qüvvələrinin iki pilotunun da öldüyü bildirilir.

### Özbəkistan Müdafiə Nazirliyinin bayrağı və emblemi yaradılacaq



Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkəsinin Müdafiə Nazirliyinin bayraq və embleminin yaradılması haqqında Fərman imzalayıb.

Müdafiə Nazirliyinin bayrağı göy rəngdə, düzbucaq şəkildə olacaq. Göy rəng hakimiyyət, əzəmət, ləyaqət, güc və qüdrəti təcəssüm etdirir. Bayrağın mərkəzində-üz və arxa tərəfdə Müdafiə Nazirliyinin emblemi əks ediləcək. Emblem göy haşiyəli, sarı rəngli dairədən ibarətdir. Emblemin ortasında səkkizguşəli ulduz var. Səkkizguşəli ulduz qədim Şərqdə milli arxitektura sənətinin əsas elementi olmaqla yanaşı, dövlətçiliyin, birliyin hərbi təcəssümüdür. Ulduzun mərkəzində isə böyük hökmdar və sərkərdə Əmir Teymurun at üstündə qızılı əksi təsvir olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# MOİK idmançıları respublika çempionatında uğurla çıxış ediblər

Hövsan Olimpiya Kompleksində kyokşin karate idman növü üzrə növbəti respublika çempionatı keçirilib. Yarışda iştirak edən MOİK idmançıları layiqli çıxış edərək medallar qazanıblar.

Ümumilikdə, MOİK təmsilçilərindən səkkizi fəxri kürsüyə qalxıb. Ramal Rəhimov hamıdan güclü olaraq qızıl medala sahib çıxıbsa, Həsən Həsənli, Kənan Hacıyev, Yusif Rüstəmov, Elmin Əlizadə, Elnur İsmayılov və Ələkbər Babazadə gümüş, Lətif Bayramov isə bürünc medal əldə edib.

* * *

Dekabrın 1-də kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarının, həmçinin idman cəmiyyətlərinin qatıldığı yarışda 28 komandanın 138 boksçusu qüvvəsini sınayıb. Altı gün davam edən turnirdə 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Boks Mərkəzində təşkil olunan çempionatda MOİK beş idmançı ilə təmsil olunub. Digər idmançılarımız ümidləri doğrultmasa da, 56 kq çəki dərəcəsində yarışan Tayfur Əliyev bütün rəqiblərini üstələyib. Səkkizdəbir finaldan mübarizəyə başlayan Tayfur Əliyev dörd görüşün hər birində 5:0 hesabıyla tam qələbə əldə edib. Bununla da idmançımız qızıl medal əldə edərək fəxri kürsünün 1-ci pilləsinə qalxıb.



**Elvin YAQUBOV, MOİK**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində hərbi qulluqçuların döyülməsi artıq adi hala çevrilib.

İşğalçı ordunun 5-ci dağatıcı alayının hərbi qulluqçusu Qarik Markaryan xidmət yoldaşları tərəfindən qəddarcasına döyülüb.

Oğlunu ziyarət etməyə gələn əsgərin atası hadisədən xəbər tutub və dərhal müvafiq qurumlara şikayət edib. Məlumatda o da deyilir ki, döyülən əsgər Q.Markaryanın atası Qarabağ müharibəsi iştirakçısı Vahram Markaryandır.

Faktla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir biabırçı hadisə qeydə alınıb.

Madagiz ərazisində yerləşdirilən işğalçı ordunun əsgəri Levon Avanesyan tabor komandirinin texnika üzrə müavini Artuşer Ohanyan tərəfindən mütəmadi olaraq cinsi istismara məruz qalıb.

Tabor komandirinin müavini susmaq əvəzində əsgərə məzuniyyət söz verib. Lakin zabit verdiyi sözə əməl etmədiyinə görə əsgər L.Avanesyan dilə gəlib və bu biabırçı olayın üstü açılıb.

Faktla bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı: İsa ELDAROĞLU**

# Şəhid hərbi qulluqçuların daha 210 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul olunub

Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanının icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən Komissiyanın iclasında şəhid hərbi qulluqçulardan daha 142 nəfəri üzrə 210 vərəsəyə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda bildirilib ki, ümumilikdə şəhid hərbi qulluqçulardan 9531 nəfərinin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub. Onların vərəsəliyi notarial qaydada təsdiq edilir və birdəfəlik ödənişlə təmin edilmək üçün elektron qaydada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilir.

Təqdim olunmuş sənədlərə işçi qrupu tərəfindən baxılandan sonra komissiya tərəfindən ödəmənin verilməsi barədə qərar qəbul olunur. Şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmə verilməsi dövlət başçısının mühüm sosial əhəmiyyət kəsb edən humanist bir addımı olmaqla, ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğının növbəti təzahürüdür.

Qeyd edək ki, bu günədək artıq 1223 şəhid hərbi qulluqçu üzrə 1509 vərəsəyə 11 min manat məbləğində ödəmənin verilməsi üçün qərarlar qəbul olunub və ödənişin verilməsi prosesi davam etdirilir.

# Şəhid Nurlan Əsgərlinin xatirəsi anılıb




Dekabrın 3-də Masallı rayonunun Viləş kəndində keçirilən anım tədbirində 2016-cı ilin aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş hərbi qulluqçu Nurlan Əsgərlinin xatirəsi ehtiramla yad edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə şəhidin doğulduğu evə baş çəkib, uyuduğu məzarı ziyarət ediblər.

Viləş kənd tam orta məktəbində davam etdirilən anım mərasimində Azərbaycanın Dövlət himni səsləndirilib, respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən məktəbin direktoru Habil Qənbərov, Viləş kənd ərazi icra nümayəndəsi Alim Ələmov, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin bölmə rəisi Babək Hacıyev, "Yeni həyat" qəzetinin baş redaktor müavini Rəsul Rzayev, şəhidin doğmaları və başqaları Azərbaycan əsgərinin aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqdan danışaraq işğal altında olan torpaqlarımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağına əminliklərini ifadə ediblər.

Çıxış edənlər aprel döyüşlərindəki qələbənin Azərbaycan xalqının mübarizliyinin, Milli Ordumuzun gücünün təntənəsi olduğunu vurğulayaraq bildiriblər ki, bu qələbə xalqımızın Azərbaycan Prezidentinin ətrafında sıx birləşdiyini bir daha göstərir.

Şəhidin atası Bayram Əsgərov və anası Ziba Əsgərova ölkəmizdə müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Anım mərasimində məktəbin şagirdləri hərbi vətənpərvərlik mövzusunda ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

# İdman

## “AVRO-2020” seçmə mərhələsində oyunlarının təqvimi müəyyənləşib

Azərbaycan milli komandasının "AVRO-2020" seçmə mərhələsində oyunlarının təqvimi müəyyənləşib.

Qurban Qurbanovun rəhbərlik etdiyi komandanın ilk matçı 2019-cu il martın 21-də Xorvatiyada, son oyunu isə noyabrın 19-da Slovakiyada təşkil olunacaq.

Təqvim aşağıdakı kimi müəyyən olunub:

21 mart - Xorvatiya-Azərbaycan; 8 iyun - Azərbaycan-Macarıstan; 11 iyun - Azərbaycan-Slovakiya; 6 sentyabr - Uels-Azərbaycan; 9 sentyabr - Azərbaycan-Xorvatiya; 13 oktyabr - Macarıstan-Azərbaycan; 16 noyabr - Azərbaycan-Uels; 19 noyabr - Slovakiya-Azərbaycan.

## Eltac Səfərli “Baku Open” şahmat turnirinin qalibi olub



Noyabrın 24-də Bakıda start götürən "Baku Open" beynəlxalq şahmat turnirinə yekun vurulub.

9 mümkündən 7,5 xal toplayan Azərbaycan şahmatçısı Eltac Səfərli turnirin qalibi olub. Qədir Hüseynov, Rəvan Əliyev, Samir Davidov (Azərbaycan), Jamsaran Sıdıpov (Rusiya), Timur Qareyev (ABŞ) və İvan Popov (Rusiya) 7 xalla sonrakı yerləri bölüşüblər.

Isveçrə sistemi üzrə keçirilən turnirdə Azərbaycanla yanaşı, Belarus, ABŞ, Ukrayna, Braziliya, Rusiya, Gürcüstan, Fransa, İordaniya və Əfqanıstandan 156 şahmatçı mübarizə aparıb. İştirakçılardan 16-sı qrossmeysterdir.

## Yunan-Roma güləşçilərimiz Moskvada üçüncü olublar



Moskvada sərbəst və yunan-Roma güləşi üzrə ikiqat Olimpiya çempionu İvan Yarıginin xatirəsinə "Alrosa" kuboku yarışları keçirilib.

"Dinamo" İdman Sarayında təşkil olunan turnirdə Olimpiya çəkilərində çıxış edən güləşçilər komanda yarışlarında güclərini sınayıblar. Sərbəst güləşçilərin turnirində məşqçi Nazim Əlicanovun rəhbərliyi altında İslam Bazarqanov (57 kq), Ənvərbəy Dalqatov (65 kq), Hacımurad Ömərov (74 kq), Kənan Əliyev (86 kq), Roman Bəkirov (97 kq) və Rahid Həmidlidən (125 kq) ibarət komanda Gürcüstana qalib gəlib, Rusiya, İran və Özbəkistana uduzub. Bu nəticə ilə yığmamız 4-cü yeri tutub.

Yunan-Roma güləşi üzrə millimizin heyətində Ramiz Məmmədov (60 kq), Kərim Cəfərov (67 kq), İslambek Dadov (77 kq), Rafiq Hüseynov (87 kq), Zamir Məhəmmədov (97 kq) və Türmən Eyyubov (130 kq) yer alıb. Məşqçilər Turac Hüseynli və Zöhrab Abbasovun tapşırıqlarını icra edən komandamız Rusiya və Özbəkistana məğlub olub, Gürcüstana isə qalib gəlib. Bu nəticə ilə millimiz "Alrosa" kuboku yarışlarını bürünc medalla başa vurub.

## Boks üzrə Azərbaycan çempionatı başa çatdı




Dekabrın 1-də kişi boksçular arasında Azərbaycan çempionatının qalibləri müəyyənləşib.

Boks İdman Mərkəzində keçirilən çempionatın müxtəlif çəki dərəcələri üzrə final qarşılaşmalarında qalib gələn Tayfur Əliyev (56 kq), Cavid Çələbiyev (60 kq), Elvin İsayev (64 kq), Elnur Süleymanov (69 kq), Kamran Şahsuvarlı (75 kq), Rauf Rəhimov (81 kq), Rövşən Yaqubzadə (91 kq), Məhəmməd Abdullayev (+91 kq) Azərbaycan çempionu adına sahib olublar.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Murtuzov Famil Zöhrah oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 979
Nüsxə 3525